DOI: https://doi.org/10.36719/2706-6185/49/45-49

**Gülarə Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0780-4082
gulara.qocayeva@adpu.edu.az

# Müasir müəllimin əsas xüsusiyyətləri

## Xülasə

XXI əsrin özünəməxsus tələbləri var. Əgər bu dövrdə müasir müəllim olaraq fəaliyyət göstəririksə, onun xüsusiyyətlərini dərindən öyrənməliyik. Hər sahədə yenilikləri tətbiq etmək digər insanlar üçün əlverişlidir. Bu sahələr sırasında müəllim sənəti də eyni zamanda həmişə yeniliklər tələb edən sənətdir. Şagird, tələbə, ümumilikdə hər bir təhsilalan müəllimdən yeni metodika tələb edir. Unutmaq olmaz ki, "Cəmiyyətin düşməni cəhalət, cəhalətin düşməni isə müəllimdir" deyirlər.

***Açar sözlər:*** *müəllim, müasir yanaşma, bacarıq, tənqidi yanaşma, yaradıcı yanaşma*

**Gulara Gojayeva**
Azerbaijan State Pedagogical University
PhD in Pedagogy
https://orcid.org/0000-0002-0780-4082
gulara.qocayeva@adpu.edu.az

# The Main Characteristics of a Modern Teacher

## Abstract

The 21st century has unique demands. If we act as modern teachers in this period, we must study its characteristics in depth. Applying innovations in every field is convenient for other people. Among these fields, the art of teaching is also an art that always requires skills. Pupil, student, in general, requires a new methodology from every educated teacher. It should not be forgotten that they say, "The enemy of society is ignorance and the enemy of ignorance is the teacher."

***Keywords:*** *teacher, modern approach, skill, critical approach, creative approach*

## Giriş

Azərbaycanın dahi oğlu, ulu öndərimiz Heydər Əliyev də müəllimlik peşəsinə yüksək qiymət verirdi. O, müəllim haqqında demişdir: "Müəllimin vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır. Gələcək, bilikli, elmi insanların çiyinləri üstündə qurulacaqdır".

**Tədqiqat**

Müəllim sənəti şərəfli olduğu qədər, bir o qədər də mürəkkəb və məsuliyyətlidir. Təhsil prosesinin əsas siması müasir müəllimdir. Peşəsinin mahiyyəti və müqəddəsliyinə görə həm dini baxımdan, həm də cəmiyyətdə xüsusi yer tutub hesab olunub. Böyük hörmət və nüfuz sahibi olan müəllimə bütün zamanlarda ehtiram olmuşdur. Hər birimiz istər orta məktəbdə, istərsə də ali təhsil ocaqlarında oxuyarkən müəllimlərimizi diqqətlə dinləmiş, xoş sözlərini və məsləhətlərini yadda saxlamağa çalışmış, onları özümüzə örnək bilmişik. Bəs bu gün müəllimin nüfuzu necədir? Ümumiyyətlə, müasir zamanın müəllimi necə olmalıdır? Suallarımıza cavab tapmaq üçün peşəkar müəllimlərimizə, təhsil ekspertlərinə müraciət etdik (Azərbaycan Respublikası, 2006).

Azərbaycanda orta məktəbin və müəllim hazırlığının inkişafının növbəti mərhələsi sovetlər dövrünə təsadüf edir. Bu təhsil sisteminin əsas məqsədlərindən biri savadsızlığın aradan qaldırılması olmuşdu. O işdə Azərbaycan müəllimləri sözün əsl mənasında böyük fədakarlıq nümayiş etdirmiş

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

dilər. Bunların hesabına savadsızlığın aradan qaldırılması istiqamətində ciddi işlər görülməsi ilə yanaşı, həm də böyük alimlər, ictimai-siyasi xadimlər yetişdirilmişdir. Sovet orta təhsil müəssisələrində müəllimlərimiz bizə zəruri bilikləri öyrətməklə yanaşı, həm də təlim-tərbiyə prosesində aktiv iştirak edirdilər. Bu sistemin quruluşu orta məktəblərində əmək təlimi, idman, musiqi dərsləri keçirdilər, laboratoriyalarda iştirak edirdilər. Yəni müasirlik zaman-zaman müəllimin üstünə vəzifələr qoyur (Məmmədzadə, 2010).

Pedaqoji fəaliyyətin əsas simalarından biri də müasir müəllimlərdir – gənc nəsillərin təlim-tərbiyə olunması kimi məsul şəxsi işi yerinə yetirirlər. Müəllimin pedaqoji fəaliyyətdəki yeri, müasirliyi tələbatdan yaranır və tələbatların ödənilməsi ilə təşəkkül tapır. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti zamanla formalaşır, zənginləşir və inkişaf edir. Orta məktəb həyatının əsas istiqamətləri humanist, demokratik prinsiplər əsasında kollegial orqanlar olan məktəb və pedaqoji şuralarda məsələlərin həll edilməsidir. Müasir məktəbdə idarəedici tərəf – rəhbər və kollegial orqanlar nə qədər operativ, təşkilatçı, səriştəli və peşəkar fəaliyyət göstərərsə, məktəbin idarəetmə fəaliyyəti bir o qədər müvəffəqiyyətlə icra oluna bilir. Müasir məktəblərimizdə idarəetmənin təşkili və reallaşdırılmasında kollegial orqanların təşkilatçılıq fəaliyyəti ön plana çəkilmişdir. Müasir müəllim kollegial orqanlar olan pedaqoji şurada, metod birləşmələrdə, valideyn komitəsi ilə ünsiyyətdə, istehsalat müşavirəsi, direktor yanında müşavirə sırasına və məktəb konfranslarında, məktəb şurasında yaxından iştirak etməlidir. Müasir müəllimə ali təhsildən aldığı diplom kifayət etmir. Yeniliklərə açıq, hərtərəfli kadr olaraq öz funksiyasını icra etməlidir. Sayından və funksiyasından asılı olmayaraq bütün kollegial orqanlar məktəbin əsas düzgün idarə edilməsinə xidmət etməlidir. Kollegial orqanların idarəetmə fəaliyyətində müasir müəllimin yeri və rolunun olması mütləqdir. Çünki müasir müəllim məktəb rəhbərlərinin təşkilatçılıq fəaliyyətindən və idarəetmə fəaliyyətindən təcrid edilə bilməz (Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri, 2011).

Müasir müəllim şagirdin yaşına uyğun potensial imkanlarını nəzərə almaqla yanaşı, onu inkişafa istiqamətləndirməyi bacaran, başqa sözlə desək, fasilitator-bələdçi, şagird isə tədqiqatçı rolunda çıxış etməlidir. Ancaq unutmaq olmaz ki, şagirdin tədqiqatçılıq fəaliyyətini təşkil edən və onu istiqamətləndirən, düzgün motivasiya quran, müasir iş vərəqləri tərtib edən, meyarlar cədvəli hazırlayan, şagirdlərin fəaliyyətini stimullaşdıran yenilikçi müəllimdir (Durkheim, 1951). Təlim prosesinin səmərəliliyi, faydalılıq əmsalı müəllimin dərsə hazırlığından çox asılıdır. O, nail olunan təlim nəticələrinin reallaşdırılması, dərsdə qarşıya qoyulan məqsədin yerinə yetirilməsi, eyni zamanda dərsin funksiyası – təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələrin kompleks şəkildə həyata keçirilməsi üçün məsuliyyət daşıyır. Müasir müəllimin cəmiyyətdə yüksək rolu və xarakterik xüsusiyyətləri nəzərə alınaraq qeyd olunur ki, o, hər zaman cəmiyyətin aparıcı qüvvəsi olmuşdur. Qloballaşan dünyamızda, eyni zamanda İKT-nin həyat normasına çevrildiyi bir dövrdə bu müəllimlərin əməyi əvəzedilməz olaraq qalmaqdadır (Wentzel, 2009).

Hazırkı dövrdə müasir müəllimə ümumi tələbləri aşağıdakı kimi formalaşdırmaq olar:

- Təlimçinin hər şagirdə fərdi yanaşması (xüsusi etibar və hörmətlə);
- Təlimçinin və şagirdlərin birgə əməkdaşlığı, onlar arasında qarşılıqlı hörmət və etibar;
- Şagirdlərin olduğu kimi qəbul edilib fasilitator tərəfindən daim dəstəklənməsi;
- Şagird qabiliyyətinə inam hissinin formalaşdırılması;
- Travma yaradacaq sözlərdən çəkinmək, xeyirxahlıq, cavabların yaxşı və ya pis kimi qiymətləndirilməsindən imtina etmə;

Bu günümüzün cəmiyyətində müasir müəllim şəxsiyyəti yalnız bilik ötürən biri deyil, eyni zamanda şagirdlərin şəxsiyyətinin formalaşmasında, dünyagörüşünün inkişafında, həyat bacarıqlarının aşılanmasında vacib rol oynayan bir fasilitatordur. Müasir dövrdə sürətlə dəyişən informasiya çoxluğu, texnoloji yeniliklər və sosial dəyişikliklər müəllimlərin də yenilənməsini, eyni zamanda inkişaf etməsini vacib edir. Bəs müasir müəllim necə olmalıdır? Bu, daim təhsilin öz-özünə verdiyi bir sualdır (Bourdieu, 1986).

Əvvəla, müasir müəllim savadlı olmalı, öz ixtisasını dərindən bilməli və bu bilikləri şagirdlərə düzgün metodlarla çatdırmağı bacarmalıdır. Tədris prosesində yalnız və yalnız ənənəvi üsullarla kifayətlənmək bizi keyfiyyətsizliyə apara bilər. Müəllim interaktiv dərs metodlarına, onların

rəqəmsal resurslara inteqrasiyasına və müxtəlif öyrədici texnologiyalara açıq olmalı, şagirdlərin marağını artırmaq üçün müasir yanaşmalardan istifadə etməyi bacarmalıdır (Cabbarov, 2005).

## Nəticə

Nəhayət, müasir müəllim həm qlobal trendləri, həm də milli-mənəvi dəyərləri nəzərə alaraq təhsil verməlidir. O, gənc nəslə vətənpərvərlik, humanizm və məsuliyyət hissi aşılamalı, onların hərtərəfli inkişafına töhfə verməlidir. Bütün bunlar onu göstərir ki, müasir müəllim olmaq sadəcə bilik vermək deyil – bu, eyni zamanda nümunə olmaq, ilham vermək və dəyişən dünyaya uyğun gənclər yetişdirmək deməkdir (Rutter & Maughan, 2002).

Müasir müəllim özündə aşağıdakıları ehtiva edir:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o, dinlənilməlidir;
4. Bütün insanlar biri-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün uşaqların inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

Birgə öyrənmə daxilində uşaqlar ümumi hədəflər naminə çalışmaqla məsuliyyəti və resursları bölüşürlər. Onlar sinifdə birgə qrup işinin uşaqların əsas anlayışları yaxşı qavramasında və bu işə bir-birinə qarşı səmimi münasibətlərin qurulmasına güclü təsir etməsinə şərait yaratmalıdırlar (Buss, 2019).

Müasir təhsil – Müasir müəllimi qeyd ediriksə, mütləq inklüziv sinifləri də nəzərə almalıyıq. Xüsusilə, əlilliyi olan şagirdləri öyrədərkən sinifdə qrup işinin səmərəliliyini tam təmin etmək üçün yaxşı olar ki, onların bacarıqlarının səviyyələrinə görə qruplaşdırılma aparılmasın. Yəni əlilliyi olan bütün uşaqları bir qrupa yığmaq və ya onları əlilliyi ilə çağırmaq çox qürurqırıcı ola bilər və bu, şagirdlərə əməkdaşlıq və öyrənmə üçün az imkanlar verir. Müxtəlif təməl biliklərə malik olan şagirdlərlə birgə qrup yaratmaq hər kəs üçün daha öyrədici imkanları təmin edir (Bukowski & Sippola, 2001).

Bu istiqamətdə aparılan işlər hər iki tərəf üçün arzuolunan ola bilər. Şagirdlərdə düzgün empati qabiliyyəti formalaşır. Qarşı tərəfə yardım etmək, onun çətinliklərini duyma bacarığı inkişaf edir (Cabbarov, 2005). Bu isə gələcəkdə peşəkar kadr olan bu günün şagirdinin öz şəxsi inkişafına da köməklik göstərəcəkdir. Burada müasir müəllim nəyi necə çatdırmalı olduğunu bilməlidir. Gəlin aşağıdakı cədvələ diqqətlə baxaq:

| Təqdimatın müxtəlif vasitələri | Fəaliyyət və özünü ifadənin müxtəlif vasitələri | İştirak/cəlb olunmanın müxtəlif vasitələri |
|---|---|---|
| - Hekayədəki əsas hadisələri göstərən qrafik<br>- Dinləmək üçün səsli oxumaq<br>- Bəzi qruplarda müzakirələr<br>- Təcrübə | - Hekayənin nədən bəhs etdiyini göstərən kiçik video hazırlaya bilərlər<br>- 3 qatlı piroq (plastilindən, kağızdan) hazırlayıb onunla hekayənin əvvəli, ortası və sonluğunu ifadə edə bilər<br>- Oxuduqları hekayəni rollu oyunlarla göstərə bilərlər | - Uşaqlar seçdikləri kitabdakı hekayənin ardıcıllığını müəyyən edirlər.<br>- Uşaqlar oxuduqlarının rəsmini çəkə bilər. |

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elm və təhsillə bağlı dediyi gözəl sözləri yada salmaq yerinə düşər:

"Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədidir, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir." Yəni insan bir sərvətdir, hər bir şagirdin millətə qatacağı müxtəlif dəyərlər mövcuddur.

Qloballaşan dünyada sivilizasiyanın ən mütərəqqi sahəsi sayılan təhsil və müasir müəllim prosesi durmadan inkişaf etməli, yenilikçi tələblər səviyyəsində təkmilləşdirilməli, yenidən qurulmalıdır. Buna biganə qalmaq mümkün deyil (Hartup, 1996).

Birləşmiş Millətlər Təşkilatının XXI əsri «Təhsil əsri» – «İntellekt əsri» adlandırması heç də təsadüfi deyil. Bu, son illərdə dünyanın inkişaf etmiş ölkələrində daha çox parlaq şəkildə nəzərə çarpan yeni elmi-texniki nailiyyətlərin nəticəsindən, həyata tətbiqindən irəli gələn zərurətdir. Bunu müasir müəllim də bilməlidir. Deməli, hazırkı dövrdə diqqəti cəlb edən qlobal problemlərdən biri "təhsil əsrinin" ilk illərindən başlayaraq yeni pedaqoji texnologiyalara, fəal təlim metodlarına istinad etmək və milli təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya olunmasına zəmin yaratmaqdır. Problemin bu şəkildə qoyulması milli təhsil sistemimizdə müvafiq parametrlərə əsaslanan islahatların həyata keçirilməsi zərurətini qarşıya qoyur (Hartup, 1996).

Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi, hərəkətverici qüvvəsidir. Müəllim əməyində onun şəxsiyyəti, bacarığı aparıcı yerlərdən birini tutur. Müəllim şəxsiyyəti lazımi səviyyədə formalaşmazsa, bu, cəmiyyət üçün böyük sosial faciələrə səbəb ola bilər.

Elm inkişaf etdikcə, təcrübə artdıqca təhsil anlayışı geniş məna kəsb edir, həyatın onun qarşısında qoyduğu yeni tələblər nəticəsində vəzifələr optimallaşır (Məmmədzadə, 2010).

Axı müəllim gənc şəxsiyyətin mənəvi aləminin memarı, eyni zamanda cəmiyyətin etibar etdiyi şəxsdir. Pedaqoji fəaliyyətin müvəffəqiyyəti üçün hər bir təhsilverici təbiət və cəmiyyət haqqında dərin biliklərə yiyələnməklə, yüksək inam və bir sıra mühüm keyfiyyətlərə malik olmalıdır. Məqalənin sonunda belə qərara gəlirik ki, bir müəllimin bacarıqları ilə yanaşı, eyni zamanda məsələlərə baxış mövqeyi çox vacibdir (ARTİ – Azərbaycan Respublikasının Təhsil İnstitutu, n.d.).

"Müəllim–şagird" ünsiyyətində qarşılıqlı münasibətlər sistemində onların hər biri təlim prosesinin gedişində tərəf müqabili kimi iştirak etməlidirlər (Məmmədzadə, 2010).

Müasir dünyamızın inkişaf etmiş ölkələri artıq təhsilin yeni məzmununu lap çoxdan tətbiq edirlər və onun müsbət nəticələri barədə aydın təsəvvürə malikdirlər. Belə məzmun nəticələrdən ibarət olur və eyni zamanda bacarıqlara söykənir. Şagirdlərin təlim fəaliyyətini ifadə edə bilmək imkanı ilə seçilir.

Müəllim şagirdlərə öz layihələri üzərində tam səlahiyyət verməklə, iş üçün çox maraqlı və məqsədəuyğun şərait yaradıb, habelə aydın iş strukturu təmin edərək onların öz fəaliyyətlərini əlaqələndirəcəyi ehtimalını artırmış olur. Öyrənmə prosesi daxildən idarə olunan bir sistem olduğundan, şagirdlər bu əlaqəni özləri qurmalı və öz şəxsi anlayışlarını formalaşdırmalıdırlar (Erikson, 2002).

Sinifdə avtoritar olan müəllim informasiyanın təşkili üçün öz şəxsi mülahizəsini məcburi, zorla qəbul etdirir, şagirdlərin təklif və ideyalarını isə diqqətdən kənarda qoyur (Azərbaycan Respublikası, 2013).

Lakin bəzən təhsilalanın nəzərə alınmayan ideyası müəllimin öz ideyasından daha səmərəli, eyni zamanda maraqlı olur. Mütləq anlamaq lazımdır ki, təhsilalanlar hansı ideyanı işləyib hazırlayıblar. Əgər müəllimin fikrincə, bu ideya az səmərəlidirsə, onda yönəldici sualların köməyi ilə digər mülahizə yolunu təklif etmək olar. Yox, əgər əksinədirsə, yəni bu ideyada diqqəti çəkən qiymətli nəsə varsa, onda həllin bu yolunu da müzakirə etməyə imkan vermək mümkündür. İstənilən halda, şagirdlərin diqqəti cəlb edən hər bir ideyası qeyd olunmalı, mövcud və ya gələcək dərsdə müzakirəyə qoyulmalıdır. Bu, təhsilalanların özlərinə olan inam hissini formalaşdırır (Hartup, 1996).

## Ədəbiyyat

1. ARTİ (Azərbaycan Respublikasının Təhsil İnstitutu). (n.d.). *Məktəbəhazırlıq qruplarında inklüziv təhsilin təşkili*. https://www.arti.edu.az/noduploads/book/maktabahazirliq-qruplarinda-inklu-ziv-talimin-tas-kili.pdf
2. Azərbaycan Respublikası. (2006, dekabr 1). *Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)*. *Azərbaycan müəllimi* qəzeti. Bakı.
3. Azərbaycan Respublikası. (2013, oktyabr 24). *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*. Bakı.
4. Bourdieu, P. (1986). *Distinction: A social critique of the judgement of taste* (R. Nice, Trans.). Cambridge, MA: Harvard University Press. (Original work published 1979)
5. Bukowski, W. M., & Sippola, L. K. (2001). The role of peer relationships in social development. In P. K. Smith & C. H. Hart (Eds.), *Blackwell handbook of childhood social development*. Oxford: Blackwell, 363–379.
6. Buss, D. M. (2019). *Evolutionary psychology: The new science of the mind* (6th ed.). New York: Routledge.
7. Cabbarov, R. H. (2005). *Təhsil müəssisələrinin idarə edilməsində metodik xidmətin təşkili və planlaşdırılması*. Bakı: Müəllim.
8. Durkheim, E. (1951). *Suicide: A study in sociology* (J. A. Spaulding & G. Simpson, Trans.). New York: Free Press. (Original work published 1897)
9. Erikson, E. H. (2002). *Adolesans psixologiyası* (S. Hacıyev, Trans.). Bakı: Təhsil.
10. Hartup, W. W. (1996). The company they keep: Friendships and their developmental significance. *Child Development, 67*(1), 1–13. https://doi.org/10.2307/1131681
11. Məmmədzadə, R. M. (2010). *Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi*. Bakı: Müəllim.
12. Rutter, M., & Maughan, B. (2002). School influences on children's development. *Journal of Child Psychology and Psychiatry, 43*(5), 645–661. https://doi.org/10.1111/1469-7610.00082
13. Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri. (2011). Mütərcim.
14. Wentzel, K. R. (2009). Peer relationships, motivation, and academic performance at school. In K. R. Wentzel & A. Wigfield (Eds.), *Handbook of motivation at school*. New York: Routledge, 301–322.

Daxil oldu: 28.02.2025
Qəbul edildi: 07.06.2025